**Azər Əli QASIMOV**
Azərbaycan İlahiyyat İnstitutu "Dinin tarixi və fəlsəfəsi" ixtisasının doktorantı
Qərbi Kaspi Universitetinin müəllimi
E-mail: azikqasimli@mail.ru

# İBAZİLİK MƏZHƏBİNDƏ İMAMƏT ANLAYIŞI

**Xülasə**

Hz. Peyğəmbərin vəfatından sonra müsəlmanlar arasında ilk fikir ayrılıqları imamət mövzusu ilə bağlı olmuşdur. Bu vəziyyət İslam tarixində ilk firqələrin qurulmasına zəmin hazırlamışdır.

Hz. Osmanın öz dövründə göstərdiyi münasibət və davranışlar müsəlmanlar tərəfindən tənqidlərə səbəb oldu. Hətta bu tənqidlər daha da artaraq onun şəhid edilməsinə gətirib çıxarmışdır. Hz. Əlinin xilafətə gətirilməsi də müsəlmanların birliyini təmin etməyə kifayət etmədi. Xaricilər, Təhkim hadisəsindən sonra imamətin işləklik qabiliyyətini itirməsi qənaətinə gələrək tərkibindən ayrılan ilk firqə olmuşdur. Beləliklə, İslam tarixində öz yerlərini almışlar.

**Açar sözlər:** İmamət, Xaricilik, Əhli-Sünnə, Şiə, İbazilik

**DOI:** https://doi.org/10.54414/HMKB9650

**Giriş**

İslam tarixində imamət anlayışı, həm dini, həm də siyasi aspektdən diqqəti cəlb edən ən mühüm mövzulardandır. Müsəlmanlar arasında ən əhəmiyyətli fikir ayrılıqları; imamət, xilafət və dövlət başçılığı məsələləri ilə bağlı olmuşdur. İmamət mövzusunda meydana gələn mübahisələr, bir çox firqənin yaranmasında ən vacib səbəblərdən biri olmuşdur.

Bu firqələrin pik nöqtəsində yerləşən Xaricilərin imamət anlayışlarına qanuni əsas axtarmaq səyləri, onları müsəlmanların ən güclü dəlil kimi qəbul etdikləri Qurani Kərim və Hz. Peyğəmbərin sünnətinə sövq etmişdir.

Xaricilərin azad seçim yoluyla imamın müəyyənləşdirilməsi və imamın Qureyşli olması zərurətinin olmaması yönündəki fikirləri, müşahidələrimizə görə üzərində məhdud şəkildə işlənmiş bir mövzudur.

Lüğətdə, "əmmə" feil kökündən gələn imamət sözü, imam kəlməsinin məsdəridir. İmamət; irəli getmək, nəzərdə tutmaq, yol göstərmək, sövq etmək, idarə etmək və imam olmaq mənalarını verir. [2, s. 235]

Türk dilində gündəlik ifadədə istifadə olunan imam, namazı qıldıran və namazda itaət edilən şəxs kimi qəbul edilir. Fiqhdə tabe olunan, rəy və ictihad sahibi İmam Əbu Hənifə, İmam Şafi kimi şəxslər üçün istifadə olunan bir ifadədir.

Ümumiyyətlə isə imam; İslam anlayışında sözü keçən, elm sahibi, rəhbər, öndər və lider şəxslərə edilən bir müraciət formasıdır. İmam sözünün öndər və lider mənasına gəldiyi bir ayədə belə buyrulur: "Hər qrup insanı imamlarıyla çağıracağımız gün kimin kitabı sağından verilsə onlar, kitablarını oxuyarlar və onlar, ən kiçik bir haqsızlığa uğramazlar." [5, 17/11]

Termin mənasında imam sözü; sosial həyata və dinə aid məsələləri idarə edən, itaət edilən, rəhbər kimi mənalarda istifadə olunur. [7, s. 467]

İmam; camaatla qılınan namazlarda ən öndə durub, mehrabda namaz qıldıran və namazda itaət edilən şəxsə deyilir. "Bütün insanları öz imamlarıyla çağıracağıq" ayəsində qeyd olunan imam; öndər, ümumiyyətlə cəmiyyəti yönləndirən və fərdlər üzərində təsirli olan şəxslər mənasına gəlir. Müsəlmanların öndərlərinə və rəhbərlərinə imam deyilməyinin səbəbi; məsciddə hər kəsin qarşısında olmağı, mehrabda namaz qıldırmağı və ən öndə durmağıdır. [5, 17/71] [3, s. 467-469]

İmam, dini və siyasi məsuliyyəti öz üzərinə götürən Rəsulullahdan sonra müsəlmanların öndərlərinə verilən ad kimi ifadə edilmişdir. İlk dövrlərdə dini və dünyəvi sahələrə cavabdeh olan və müsəlmanlara liderlik edən dövlət başçılarına imam deyildiyi məlumdur. [1, s.153] [6, s. 76]

Xilafət kəlməsinin "xəlfən, xilfətən və xilafətən" şəklində məsdərləri var. Xilafət kəlməsinin mənası; digərindən sonra onun

yerinə keçmək, başqa birinin yerinə keçmək, başqasına vəkil olmaq, başqasını təmsil etmək kimi mənalara gəlir.

Hz. Məhəmməd (s.a.v.) möminlərin rəhbəri olduğu üçün Hz. Peyğəmbər (s.a.v.) ə imam deyilmişdir. Hz. Məhəmməd (s.a.v.) in vəfatından sonra Hz. Peyğəmbər (s.a.v.) in məqamından istifadə edən və ümmətə dini və siyasi cəhətdən rəhbərlik və öndərlik edən şəxslərə imam və ya xəlifə deyildiyi məlumdur.

Hz. Məhəmmədin vəfatından sonra onun yerinə gətirilən Hz. Əbu Bəkr, Xəlifətu Rəsulillah müraciət formasından istifadə etmişdir. Hz. Ömər, xəlifə olduqdan sonra ilk dəfə Xəlifətu-Xəlifəti Rəsulillah müraciət formasından istifadə etmişdir. Ancaq bu müraciət forması uzun olduğu üçün, yerinə Əmirül-Möminin müraciət formasına üstünlük vermişdir. Buna görə də ilk dəfə Əmirül-Möminin müraciət formasının, Hz. Ömər (r.a.) dövründə xəlifənin yerinə istifadə olunduğu məlumdur. Hz. Osman dövründə Xəlifətullah müraciət formasından istifadə edilmişdir. Hz. Əli dövründə isə təkrar Əmirül-Möminin müraciət formasına üstünlük verilmişdir.

Dövlət başçılarını ifadə etmək üçün istifadə olunan imam sözü ilə, məsciddə namaz qıldıran imamları birbirinə qarışdırmamaq üçün, dövlət başçılarını ifadə etmək üçün imaməti-uzma, imaməti-kübra anlayışlarına üstünlük verilmişdir.

Rəsulullahdan sonra müsəlmanları siyasi və hüquqi cəhətdən ən yüksək mərtəbədə idarə edən şəxslər üçün imamət anlayışı Kəlam, Fiqh və Tarixdə fərqli başlıqlarla işlənilmişdir. Kəlam və Fiqh kitablarında, ümumiyyətlə imamət başlığı altında tədqiqat apararkən; tarixçilər, Hz. Əbu Bəkrdən başlayıb Osmanlı dövlətinin sonuna qədər davam edən idarəçilik formasını xilafət kəlməsiylə ifadə etmişlər.

İmam, Əmirül-Möminin, Ulul-əmr kimi anlayışlar dövlət başçılığı məqamını ifadə etmək üçün istifadə olunan geniş yayılmış ifadələrdir. Kəlam elminə aid əsərlərdə, idarəçilik və idarəetməyə aid ən geniş yayılmış başlıq kimi imamət kəlməsinə üstünlük verilmişdir. Kəlamçılar arasında imamət anlayışının daha çox istifadə olunmasının səbəbi H. II (M. VIII.) əsrdə Hişam ibn Hakim və Əli ibn Misem kimi şiə firqəsinə mənsub şiə müəlliflərinin əsərlərində imamət kəlməsinin daha çox istifadə olunmasıdır. [2, s. 201]

İmamət anlayışı haqqında İslam tarixi boyu birbirindən fərqli fikirlər irəli sürülmüşdür. Bu mövzuda razılığa gəlmədiklərinə görə ortaq bir tərif yoxdur. Cüveyni, imamət ifadəsinə bu şəkildə tərif vermişdir: “İmamət, həm fərdləri, həm cəmiyyəti din və dünya işlərində maraqlandıran ümumi bir başçılıq və tam bir liderlikdir. Başlıca məqsədi, vətəni hücumlardan qorumaq, xalqı idarə etmək, İslam dəvətini yerinə yetirmək, mübahisələri həll etmək, zalımlardan məzlumların haqqını almaq, verməyənlərdən haqq sahiblərinin hüququnu təmin etməkdir.” [7, s. 219]

Mavərdi də belə bir tərif vermişdir: “İmamət, dini mühafizə etmək və dünyəvi işləri yerinə yetirmək üçün peyğəmbərliyə xələf olmaq üzrə qoyulan bir məqamdır.” Ömər Nəsəfiyə görə imamət: “Hz. Peyğəmbərə vəkalətən dini iqamə üçün qurulan bir müəssisədir ki, bütün ümmətin ona tabe olması vacibdir.” İbn Xəldun isə imamət və xilafət anlayışlarına eyni tərifi vermişdir. İbn Xəldun, dinə sahib çıxmaq və İslama uyğun olaraq dünya siyasətini icra etmək üzrə şəriət sahibinə naiblik etmək kimi izah etmişdir. [6, s.510]

Bu tariflərə umumi şəkildə baxıldıqda təriflərin ləfzlərinin birbirindən fərqli, mənalarının isə birbirinə oxşar olduğunu görmək olur. Sünni İslam alimləri, imamət və xilafət sözlərinin birbirlərinin yerinə istifadə olunduğu ifadələrin də olduğunu qeyd etmişlər.

**İbazilikdə imamət anlayışı**

**İmam gərəklidirmi?**

Xaricilərin əl-Mühakimətül-Ula kimi ilk təşəkkülləri arasında irəli sürdükləri və möhkəm sarıldıqları bir fikirləri olmuşdur: “Hökm ancaq Allaha aiddir.” (La hukme illa-Lillah). Çıxışlarına təməl təşkil edən bu söz, bir yandan onların hakimiyyət anlayışlarının istiqamətini müəyyənləşdirir.

Ancaq bu sözün o gün, bu şəkildə başa düşülməsinə şahid oluruq: Allahdan başqa heç kim hökm verə bilməz və hökumət edə bilməz, yəni insanların hökuməti, əmirlik yoxdur. Beləliklə özünə: “Hökm ancaq Allahındır” deyən Xaricilərə, Hz. Əlinin verdiyi “bunlar əmirlik yoxdur deyirlər, halbuki insanların yaxşı da pis də olsa bir əmirə hər zaman ehtiyacları

vardır" cavabı, onların bu sözünün, əmirlik yoxdur formasında başa düşüldüyünü göstərir. Amma onların bu sözdən "əmirlik yoxdur" şəklində bir anlayışı müdafiə edib- etməmələrini proqnozlaşdırmaq olduqca çətindir. [1, s. 153]

Baxmayaraq ki, İbadilərlə eyni zamanda Muhakkimə qrupundan ayrılan Nəcdə ibn Amir əl-Hənəfinin "əgər işlərini görüb, ədalətlə hökm edəbilirlərsə, insanların bir imama ehtiyacları yoxdur" şəklində bir düşüncəyə sahib olmağı, onların hələ başlanğıcda imamın şərt olub-olmadığı xüsusunda qısa müddət də olsa bir tərəddüd yaşamış olabiləcəklərini göstərir.

Amma Nəcdə ibn Amirin bu mövzudaki qənaətini bir iddia kimi irəli sürməyindən çox əvvəl, Harurada toplanan Xaricilərin "işlərini idarə etmək üçün aralarından birini imam seçmək" fikrində razılığa gəlmələri və buna əsaslanaraq da Abdullah ibn Vəhb ər-Rasibinin imam seçilməsi ilə "hökumət fikrini qəbul etməmək" anlayışından uzaq qalmış olduqlarını, daha əvvəl də bildirmişdik. Bu səbəbdən onlar, imamət müəssisəsinin varlığını, hələ başdan bəri qəbul etmiş görünürlər. [4, s. 321]

Məsudi (346/957), İbadiyənin, Şiənin İmamiyə qolu ilə birlikdə imamətin nassla olduğunu söylədiklərini nəql edir. Ancaq Şiə ilə İbadiyənin, bu mövzudakı nass anlayışları birbirinə ziddir. Belə ki, İbadiyə, Şiəni imaməti bir nass, vəsiyyət və təyin kimi gördükləri üçün ağır bir şəkildə tənqid edir. Buna görə İbadiyə, öz camaatının işlərini idarə edəcək və ətrafında toplanılacaq bir imamın çox cüzi istisna ilə-seçki yoluyla, yəni təyin edilib vəzifəyə gətirilməsini qəbul edir. İmamlığın, müsəlmanların düşüncələriylə bağlı bir iş olduğu fikrini müdafiə edən İbadilər, özləri, düşmənlərinin sahib olduqları insan, silah, at, ərzaq və s. sayının yarısına sahib olduqları anda imam seçməyin məcburi bir iş olduğunu da söyləyirlər. [7, s. 123]

İmamətin, Əhli-Sünnə duyulduqda, Mötəzilə də ağıl və məntiq cəhətdən zəruri olduqda birləşirlər. Şiə isə, imamətin ağıl cəhətdən vacib olmadığını, Allahdan qullarına bir lütf olduğu qənaətini irəli sürür.

Tadeusz Lewicki, uyğun olmayan vəziyyətlər səbəbiylə imamətdən imtina etməyin mümkün olduğunu və imamsız vəziyyətə İbadilərin kitman dediklərini Dərciniyə əsaslanaraq söyləsə də, kitman dövründə imam seçilmədiyinə dair bir qeydə də rast gəlinmir. Ancaq kitman dövrü, İbadilərin bir imamı olduğu halda, düşmənlərinin hegemonluğu altında yaşayıb, özlərinə məxsus bir dövlət qurmalarının mümkün olmadığı vəziyyətə işarə edir. [4, s. 220-222]

**İmamlara verilən adlar.**

Əhli-Sünnədə imama ümumi şəkildə Xəlifə, Xəlifətu Rəsulillah və Əmirül-Möminin adları verilmişdir.

"İbadiyə, Əli ibn Əbu Talibdən ayrılmalarından etibarən Əmirül-Möminin adını istifadə etmişdir" deyilsə də, Həvaricin, xüsusilə İbadiyənin bu adı da istifadə etmiş olduğuna rast gəlinir. [2, s. 70-73]

Onların bu mövzuda ilk istifadə etdikləri ada Abdullah ibn Vəhb ər-Rasibinin Haruradan Hz. Əlinin məktubuna verdiyi cavabda İmamul-Muslimin formasında rast gəlinir.

Talibul-Haqq adının, onların ilk üsyan hərəkatlarından əvvəl, Hadramaut və Yəmən İbadiləri imamı Abdullah ibn Yəhyaya verildiyi məlumdur. İmamul-Ehkam da istifadə olunan adlardandır. Amma ümumi şəkildə istifadə olunan ad, İmamdır.

Beləliklə də, İbadilər, digər məzhəblərdə rast gəlinməyən bir şəkildə, müxtəlif siyasi vəziyyətləri ifadə etmək üçün, imam kəlməsinin müxtəlif formalarından istifadə etmişlər.

Yuxarıda qeyd etdiyimiz kimi sirli və gizli şəkildə yaşanan kitman dövrü, İbadiləri uyğun olmayan şərtlərdə və İbadi olmayanların hakimiyyətləri altında olduqları zamanı ifadə edir. Kitman halında yaşayanlar tərəfindən özlərini qorumaq məqsədiylə təyin olunan imam, özlərinə bir hücum vaqe olduqda və ya düşmənlərə qarşı çıxıb hakimiyyətin əldə edilməsi üçün fəaliyyət göstərdikdə, ona İmamud-Difaa (Müdafiə İmamı) adı verilir. [6, s. 170-172]

İmamlığın təşəkkülü, yəni hakimiyyətin İbadilərdə olduğu vəziyyətə də Məsləkuz-Zühur (Açıq yol) deyilir. Normal şərtlərdə və üsuluna uyğun şəkildə açıq yolla seçilən imama da İmamul-Bəya (Sədaqət göstərilən imam) və ya qısaca İmam deyilir.

Oman İbadilərinin bəyənmədikləri imamlara, Məlik və ya Sultan dedikləri; həmçinin imamlara Seyyid adının verildiyi də məlumdur.

**İmamın xüsusiyyətləri.**

Muhakkimə qrupundan asılı olan İbadiyə, imamət mövqeyinə gətiriləcək şəxsin vəzifələri haqqında Əhli-Sünnədən bir nöqtədə tamamilə ayrılır.

Muhakkimə Xariciləri və İbadilər, Əhli-Sünnə tərəfindən israrla irəli sürülən "İmamlar, Qureyşdəndir" hökmünü tamamilə rədd edirlər.

Onların fikrincə imamət üçün soy heç əhəmiyyətli deyil. Özü itaətə layiq olan və Allaha itaət edən bir kölə olsa da imam ola bilər. Çünki imamət, Allahın Kitabı və elçisinin Sünnətini davam etdirir. Bu şərtləri yerinə yetirən hər kəs, istər Qureyşli, istər Ərəb, istərsə bir kölə də olsa imam ola bilər. Hz. Peyğəmbər: "İmamınız Həbəşli bir kölə olsa belə, Allahın Kitabına və Rəsulunun Sünnətinə əməl etdikdə onu dinləyin və itaət edin" buyurmuşdur. Həm Allah: "Ey insanlar! Doğrusu Biz sizləri bir erkəklə bir dişidən yaratdıq. Sizi millətlər və qəbilələr halına qoyduq ki, birbirinizi tanıyasınız. Şübhəsiz Allah qatında ən dəyərliniz, Ona qarşı çıxmaqdan ən çox çəkinəninizdir..." buyurmuşdur. [5, 55/21]

Əslində Xaricilərin bu düşüncələrinə görə məvalinin Xarici sıralarına qoşulduğu məlum olsa da, ilk əsrdə imamlarının heç biri də Ərəb irqinin xaricində deyildi, yəni mövladan olmadı.

Bu mövzuda, Mötəzilə, Murciənin bir qismi və Şəhristani (548/1153) ilə Fəxrəddin Raziyə (606/1209) görə Cəbriyyənin bir qolu, İsfərayiniyə (471/1078) görə də müstəqil bir firqə olan Dırariyə İbadiyəyə uyğunlaşmışlar.

Muhakkimə Xariciləri, imamət üçün, elmdən başqa zühd şərtini də əlavə edirlər. Bu şərtin İbadiyədə də mənimsənilmiş olduğunu görürük. Məsələn: Əbu Həmzə, Xəlifə Əbdülməliki (65-86/685-705) min dinar dəyərindəki bir libas geyinməkdəki israfına görə sərt bir şəkildə ittiham etmişdi. Elie Adib Salem, İbn Sağirdən nəql edərək İbn Rüstəmin evində sadəcə bir "yataq, bir mizraq, bir qılınc və bir at" olduğunu söyləyir. İbn Bəttutə (779/1377) də, Omanı ziyarətindən bəhs edərkən, Oman İbadi Sultanının, hər kəsi evinin qapısında oturaraq qarşıladığını söylədikdən sonra "nə bir qapıçısı nə də bir vəziri vardır"deyir.

İmamlığın digər bir şərti də, bədəni qüsurlardan uzaq yetkin bir kişi olmaqdır. Şiənin inandığı kimi bir uşağın imaməti, namaz qıldıra bilməyəcəyi və şəriətin tapşırıqlarını lazımınca yerinə yetirə bilməyəcəyi üçün qətiyyən caiz deyildir. Əhli-Sünnənin alimlərindən Bağdadi (429/1037) də imamət üçün halal, haram və digər hökmləri təbliğ edəbiləcək elm, ədalət, siyasəti idarə edəcək, hərbi və digər münasibətləri idarə edəcək güc sahibi və Qureyşli olmaq şərtlərini irəli sürməklə, uşağın imamətinin caiz olmayacağını ifadə etmişdir. [3, s. 90-94]

Həvaricdən Şəbibiyənin, əvvəllər irəli sürdükləri bir qadının imamətinin caiz ola biləcəyi fikrinə də qarşı çıxırlar.

Buna görə İbadiyə, elm və zühd sahibi, ədalətlə hökm edib Allahın Kitabı və Rəsulunun Sünnətini davam etdirəcək yetkin bir müsəlmanın, soyuna və irqinə baxılmadan camaatın rəyi yəni seçimi ilə imamət mövqeyinə gətiriləbiləcəyi fikrindədir.

**Nəticə**

Hz. Peyğəmbərin vəfatından sonra başlayan bəzi sosial problemlər, müsəlmanların öz içlərindəki birliyinin pozulmasına və firqələrin meydana gəlməsinə səbəb olmuşdur.

İmamət və xilafət quruluşunun zəruriliyi, xalqı Allahın əmr və qadağalarına görə idarə edəcək ədalətli bir imamın seçimi və imamın təyinat forması İslam tarixində Məzhəblər arasında ixtilaflara qapı açmışdır.

Xaricilik, Rəsulullahdan sonra yaranan ilk məzhəb olduğu kimi, İslam məzhəblər tarixindəki bəzi fikirlərin də ilk təmsilçiləri olmuşlar. Xaricilər imamın sadəcə Qureyş qəbiləsinə mənsub olması fikrini rədd etmələriylə həm də qeyri-adi bir prinsip ortaya atmışlar. Xaricilərin bu fikri, İslam düşüncə tarixində ilk dəfə bu firqə tərəfindən müdafiə edilmişdir.

İmamət mövzusunda Qureyşilik şərtini rədd edən Xaricilər, qismən demokratik görünən bir anlayışı əks etdirməyə çalışmışlar. İmamət, xilafət və dövlət başçılığı kimi qiymətli bir mövqeyi bəlli bir zümrənin təsirindən ayırıb, ləyaqət sahibi olan bütün müsəlmanların seçimlə gələbilməsi anlayışını israrla müdafiə etmişlər. Xaricilər imamı təyin etməkdə əsaslı metodun "Şura" olduğunu bildirmişlər.

Xaricilərin, imamın Qureyş qəbiləsinə mənsub olmayanlardan seçilməsinə dair

fikirləri, bu gün də məqbuldur. Ancaq sözün deyildiyi o əsrdəki şərtləri və vəziyyəti düşündükdə Xaricilərin bu fikirlərinin tam şəkildə tutarlı olub-olmaması mübahisələrə səbəb olan bir məsələdir. Çünki, o dövrdə Xaricilərin öz münasibətini bəlli etdiyi Qureyş qəbiləsi, müsəlmanların əksəriyyəti tərəfindən səlahiyyətli qəbul edilmişdir. Qureyş say etibarilə, gücüylə və sahib olduğu imkanlarla digər qəbilələrə nisbətən daha üstün bir mövqedə olmuşdur. Bu səbəblə Qureyşə mənsub olan bir şəxsin imamətə gətirilməsi müsəlmanlar tərəfindən mənfi reaksiyaya səbəb olmayacaq. Ancaq Qureyşlilərdən başqa birinin o mövqeyə gətirilməsi müsəlmanların mənfi reaksiyasına və onların birliyinin pozulmasına səbəb ola bilərdi.

Xaricilərin nəzəriyyədə nə qədər demokratik sayılsalar da təcrübədə belə olmadıqları əməlləri ilə üzə çıxmışdır. Onlar Xarici düşüncəyə mənsub olmayan hər kəsin əsl mömin olmadıqlarını iddia etmişlər. Həmçinin Hz. Əli, Muaviyə və Sıffeyn müharibəsinə qatılan hər iki tərəfi də kafir qəbul etdikləri, Xarici olmayan şəxsin imamətini qəbul etmədikləri əməllərində görülmüşdür. İmamət mövqeyinin boş qalmasını istəməyən Xaricilər, özlərinə imam olaraq Abdullah ibn Vəhb ər-Rasibini təyin etmişlər. Xaricilər, imamlarını sadəcə özlərindən olan şəxslərdən seçdikləri üçün Qureyşilik şərtini İslami bir narahatlıq səbəbiylə rədd etdiklərini demək olmaz. Xaricilərin tarixinə nəzər salsaq görərik ki, imamət və hakimiyyət sahələrində uğur qazanmamış və hər zaman təcrid olunaraq kiçik qruplar şəklində mövcud olmuşlar. Ancaq Xaricilərin Qureyşilik şərtini rədd etmə tezislərinin İslam düşüncə tarixinə müsbət töhfə verdiyini deyə bilərik. Xaricilərin xüsusən də imamət məsələsi üzərindəki anlayışları sayəsində İslam düşüncəsi zənginləşmişdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bəkir Topaloğlu-İlyas Çələbi, "Kelam Terimleri Sözlüğü", İsam Yayınları, İstanbul, 2010, (Kelam Terimleri) s.153
2. Əbül-Fəzl Cəmaləddin Məhəmməd ibn Mükərrəm ibn Əli Əl-Ənsari ibn Mənsur, "Lisanul-Arab", Darüs-Sadr, Beyrut, 1997, c. XI, s. 22-24-dən ötürən Mustafa Öz-Avni İlhan, "İmamət", DİA, c. XXII, İstanbul, 2000, c. XXII, s. 201
3. Əhməd Mahmud Subhi, "Nazariyyetul-İmame", Darün-Nahdatil-Arabiyye Nəşriyyatı, Beyrut, 1991, s. 21
4. Firuzabadi əş-Şirazi, "El-Kamus El-Muhit", Misir, trs. s. 76
5. Qurani Kərim,Şərq-Qərb Nəşriyyatı, 2011
6. Raqib əl-İsfahani, "Müfrədatu Elfazil-Kuran", Thk. Safvan Adnan Davudi, Darül-Kalem, Beyrut, (Elfazil-Kuran) 1998, s. 87-dən ötürən Öz-İlhan, "İmamət", s. 204
7. Seyyid Şərif əl-Cürcani, "Et-Tarifat", Darul-Kutubil-İlmiyye, Beyrut, 1990, (Et-Tarifat) s. 33-dən ötürən Öz-İlhan, "İmamət", s. 201

**Азер Али  Гасымов**

## ПОНЯТИЕ ИМАМАТА В ИБАДИ

### Резюме

После смерти  Пророка возникли первые разногласия среди мусульман по вопросу об имамате. Эта ситуация подготовила  почву для создания первых сект в истории ислама. Из-за отношения и поведения, которые Хз. Приведения Хазрата Али в халифат было недостаточно для обеспечения единства мусульман. Таким образом, они заняли свое место в истории ислама.

**Ключевые слова:** Имамате, Ахль ас-сунна, Шииты, Ибади.

**Azer Ali GASİMOV**

## THE CONCEPT OF İMAMATE İN İBADİ

**Summary**

After the death of the Prophet, the first differences of opinion among Muslims occurred on the issue of imamate. This situation paved the way for the establishment of the first sects in the history of İslam. İt caused reactions and criticism from Muslims because of the attitudes and behaviors of Hz. İn fact, these worries increased the dose and caused him to be martyred. Bringing Hazrat Ali to the caliphate was not enough to ensure the unity of the Muslims. The Kharijites became the first sect to leave the main body, believing that the imamate lost its functionality after the Arbitration event. Thus, they took their place in the history of İslam.

**Key words:** İmamate, Khariji, Sunnah, İbadi

**Daxil olub:** 02.01.2023